

VAQİF YUSİFLİ

# "BİR TAXT QURMUŞAM ÖLÜMƏ"

**Nisə Heydərli - (əvvəlki imzası Nisə Qədirova- Şabran və Sumqayıt ədəbi mühitlərinin yetirməsi) "Bir taxt qurmuşam ölümə" adlı yeni şeirlər kitabı ilə oxucuların görüşünə gəlib. O, bundan əvvəl "Dərdiyim bənövşə" və "Nöqtələr" şeir kitablarını çap etdirmişdi. Axırıncı şeir kitabından üçüncüyə qədər on il vaxt keçib. Bunun səbəbini şairənin sözə, şeirə böyük məsuliyyətlə yanaşması hesab etmək olar.**

Əvvəlki iki kitabından fərqli olaraq Nisənin poetik inkişafının şahidi oluruq. İki şair-Əşrəf Veysəlli və Rafiq Oday da (onlar kitaba ön sz yazmışlar) Nisənin artıq öz fərdi üslubuyla diqqəti cəlb etdiyindən söz açırlar. Fərdi üslub isə özünəməxsusluq deməkdir.Şairin özüunəməxsusluğu nədə təzahür edir? İstənilən mövzuda yazmaq olar, amma o mövzunu kimsənin şeirlərində işlətdiyi bədii təsvir vasitələrindən fərqli şəkildə, yeni təşbihlərlə, metaforalarla, sözün yeni məna daşımasıyla səciyyələndirmək gərək.. Nisə Heydərli bunu bacarır. Özü də daha çox qoşmalarında, gəraylılarında. Nisənin qoşma və gəraylılıarı klassik qoşma və gəraylılardan fərqlənir. Fərq orasındadır ki, bunlarda təzə məzmun, təzə fikir diqqəti cəlb edir.Məsələn, yol və yollar haqqında kifayət qədər şeir nümunəsi tapmaq olar. Nisənin şeirində isə YOL obraza çevrilir.

**Qarış-qarış, addım-addım, anbaan,**
**Ömrümüzdən ömür biçir bu yollar.**
**Sirdaş edir yaxını da, yadı da,-**
**Yolçusunu özü seçir bu yollar.**

**Məhəbbətin çeşməsində yuyunur,**
**Eşq adında badəsi nur, meyi nur,**
**Məcnunuyla, Kərəmiylə öyünür,**
**Səhralara könül açır bu yollar.**

**Nə zamandı ürəyimdə xaldı qəm,**
**Eşq bağımda arı mənəm, baldı qəm.**
**Vətən adlı cənnətimi aldı qəm,-**
**Məni görüb niyə qaçdı bu yollar?**

Yol obrazından sonra Nisənin bir neçə şeirindəTorpaq obrazı filə qarşılaşırıq. "Bir ovuc torağam" və "Torpaq" şeirlərində də Torpaq özü danışır. "Bir ovuc torpağam beş arşın bezəm, Özümə yazığım gəlir". "Torpaq həsrəti" şeirində isə insan və torpaq paraleli ilə üzləşirik.

Nisə Heydərlinin ithaf şeirlərində isə obrazların səciyyəsi, insani keyfiyyətləri dolğunluğu ilə rəsm edilir. "Dahilər Tanrının sevdikləridir"-ulu öndər Heydər Əliyevə həsr olunmuş "Dahilər" şeiri bu misra ilə tamamlanır və o şeirdə ulu öndərin Dahilik missiyası obrazlaşır. Aprel şəhidi, mayor Elvin Əliyevin igidliyi onun ruhunun çağtırışı ilə təcəssüm tapır. Öz ailəsinə, daha doğrusu, həyat yoldaşına vəsiyyət kimi səslənən bu çağırışda əsas qayə Vətəni sevməkdir: "Əzizim, ağlama, mən səninləyəm, nə qədər Vətən var, Azərbaycan var". Atasına həsr etdiyi şeir çox qısa olsa da, ATA obrazı mükəmməl işlənib:

**Əlləri susuz torpağa**
**bənzəyirdi,**
**Çiyinləri yorğun çinara.**
**Gözləri dalğasız bir dənizdi,**
**Ruzisi halal, ürəyi təmizdi.**




**Ümidləri sonsuz,**
**Arzuları müqəddəs,**
**Atam!**

Məni ucalığa səsləyən KƏS!

Nisə xanımın "Qərənfil" şeirini onun ən yaxşı şeirlərindən biri hesab edirik. Qərənfilə dair bəlkə yüzlərlə şeirlər yazılıb (Natəvandan üzü bəri), Nisənin "Qərənfil" şeiri də bu şeirlər içərisində seçilə bilər:

**Məzarların tacı oldu,**
**Ana oldu, bacı oldu,**
**Bu dünyaya carçı oldu,**
**Sözdü qərənfil, qərənfil.**

**Tarixin qan yaddaşıdıf,**
**Şəhidə məzar daşıdı.**
**Ləçəyində od daşıdı,**
**Közdü qərənfil, qnərənfil.**

**Çiçəkdi, haqqın səsidi,**
**Yrəkdi, duydum səsini.**
**Azadlığın nəğməsini,**
**Yazdı qərənfil, qərənfil.**

Nisə Heydərli iki şeirlər kitabında olduğu kimi, bu kitabında da sevgi şeirləri ilə çıxış edir. Onu müəyyən mənada sevgi şairi adlandırmaq olar. Çünki bu şeirlərdə yaşanılan duyğular qələmə alınır.Sənsizliyin doğurduğu nisgilli anlar, ümidsizlikdən yaranan hicran əzabları, dərdin ürəkdə pörşələnməsi bir sözlə, sevgi əzabları bu şeirlərin havasını təşkil edir. Onun "Nə gözəl" şeiri bütün bu dediklərimizin göstəricisi ola bilər:

**Nə gözəldi ağlamaq,**
**Yanmaqküldən də gözəl.**
**Bir eşqin budağında,**
**Solmaq güldən də gözəl.**

**Nə gözəldi sevginin**
**Ağrısıyla doğulmaq.**
**Səni sevən gözlərin**
**Sularında boğulmaq.**

**Nə gözəldi ölümün**
**Özündə sevgi varsa**
**Vüsala gedən yolun**
**İzində sevgi varsa**

**Nə gözəldi hayqırmaq.**
**Bu sevgini, nə gözəl.**
**Heç kəs unutmayacaq**
**Səni, məni, nə gözəl.**

Nədir bu şeirlərin əsas qayəsi? Lirik qəhrəmanın sənsizlik (bus öz bütün sevgi şeirlərinin atributlarından biridir) havası və hicranayrılıq alovlarında yanması-yaxılması, hətta fəryadı. "Kipriyəmdə köz daşıyıb yanıram, Küllərimdə axtarıram, çara, hey" və ya "Apar xəyalını, apar özünlə, Dözəcəm sənsizliyə" və s. Əlbəttə, hər bir dərdin çarəsi var və Nisə xanımın lirik qəhrəmanına məsləhət görərdik ki, tənhalıqdan xilas olsun, üzücü qəmlərlə vidalaşsın ("Mən qaçdıqca dərd də qaçır ardımca"), yalnız sevgi xəyalları ilə yaşasın, bir az realist olsun, "Hər şeyi yenidən başlamaq, hər şeyi yenidən bitirməkdi" fikrindən uzaq olsun, çünki "yenidən başlamaq" heç də "yenidən bitirmək" deyil. Bir şeirində yazır ki, "Dönüb sahilinə gərəyin olum, Əbədi yanımda saxlayım səni"-fikrimizcə, bu sevgi hekayətinin sonu belə olsa, yaxşıdır.

Nisə Heydərlinin - bu sevgi şairinin satirik şeirləri də var. Təəccüblü deyil. İstər sevgi şairi ol, istər təbiət, həyatda baş verən neqativ hallar səni də düşündüyrməlidir.

Nisənin "Saxta dilənçi", "Aç gözünü", "Milli toy", "Söz anla, "Axtaracaq" şeirlərində milli-mənəvi dəyərlərimizə zidd olan hallar tənqid hədəfinə çevrilir.Bu şeirlərin bir qismi əruzda yazılıb, hiss olunur ki, Nisə Heydərli əruzu duyur, az-çox bu vəznin qaydalarını bilir (hamısında olmasa da, çünki əruzda yazdığı bəzi şeirlərində sınıqlar çoxdur). Məsələn:

**Öyünmə müstəqiləm, kimi desəm, qulum olar,**
**Geysən də zərdən əba, mən istəsəm çulum olar,**
**Kəsilər uzun dilin, vallah, dilim-dilim olar,**
**Başını yarar öz əlin, danışıb dinmə, söz anla!**
**Sənə bir toy tutaram, gəl məni yad bilmə, söz anla!**

Arzu edirik ki, Nisə xanım Mirzə ələkbər Sabirin "Hophopnamə"sini dönə-dönə oxusun, faydalansın, əruzun sirlərini də qavrasın.

**Nisə Heydərli bu şeirlər kitabında bir şair kimi poetik imkanlarını sübut elədi, amma bu nöqtədə də dayanmaq olmaz, bir az da irəliləmək gərək!**